**Aysel Ağaşirin qızı RÜSTƏMOVA**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dissertantı
E-mail: aysel_rustemliar@mail.ru

# SƏNƏDLİ FİLMLƏRDƏ ŞƏRƏFLİ ÖMÜRÜN İNİKASI

**Xülasə:** Məqalədə Heydər Əliyevin incəsənətimizin bir sahəsi olan kino sənətinə xüsusi diqqəti, lazimi ölçüdə dəstəyi göstərilmişdir. Burada kinorejissor Vaqif Mustafayevin ümummilli lider haqqında ekranlaşdırdığı çoxseriyalı sənədli filmlərin təhlili öz əksini tapmışdır. Həmin xronikal əsərlərdə Ulu öndərin həyat yolunun çətin dövrləri, iş potensialının yüksək zirvəsi, rəhbərin geniş diapazonda apardığı islahatlar, xalqına göstərdiyi xidmət, müxtəlif sənət növlərinə, sənətkarlara verdiyi dəyər, taleyin ona bəxş etdiyi böyük məhəbbət, ailə ocağı ətraflı şərh edilmişdir.
**Açar sözlər:** *Heydər Əliyev, Ulu öndər, ümummilli lider, siyasi xadim, audiovizual təsvir, ekran yaradıcılığı.*

**UOT:** 791.43
**DOI:** 10.54414/pqfh5194

**Giriş**

Azərbaycan kinosu mədəniyyətimizin xüsusi bir sahəsi olaraq tarixin səhifələrini vərəqləmiş dərin bir salnamədir. *Kino tədqiqatçısı Aydın Kazımzadənin fikri ilə desək: "Azərbaycan kinosu milli mədəniyyətimizin və incəsənətimizin bir sahəsi, Azərbaycan tarixinin bir qoludur."* [1,s.11]. Müstəqillik illərində kino sənətimizə XX əsrdə tarixin ən nurlu qəhrəmanı siyasi xadim Heydər Əliyevin adı yazıldı. Ölkəyə rəhbərlik etdiyi dövrdə milli dəyərlərimizin, mədəniyyətimizin, incəsənətimizin, xüsusən də kinematoqrafiya sənətinin təbliğ olunmasında lazimi səviyyədə köməklik göstərdi. *"Kino xadimləri deyirlər ki, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dondurulmuş kino istehsalı bərpa edilib, "Azərbaycanfilm"in fəaliyyətində canlanma yaranıb. Dövlət sifarişi ilə filmlərin istehsalı kino xadimlərini yenidən sövq edib."* [2]. Siyasi xadim haqqında filmlər çəkilmiş, xalqa Ulu öndərin qüdrətli sərkərdə xarakteri tanıdılmışdır. Kinomuzda kinorejissor Vaqif Mustafayev ümummilli liderin həyat yolundan bəhs edən bir neçə seriyadan ibarət sənədli filmlər ekranlaşdırmışdır. Bunlardan "General", "Moskva, Kreml", "Bir həsədin tarixi", "Əsl məhəbbət haqqında", "Lider", "Birinci", "Tale" və s. ekran əsərlərinin adlarını qeyd etmək olar. Həmin ekran nümunələri milli kinomuzda özünəməxsusluğu ilə seçilmişdir.

**"General"** adlı sənədli filmdə Heydər Əliyevin 1960-80-ci illərdə birinci katib vəzifəsində göstərdiyi xidmətdən söz açılmışdır. Film 1999-cu ildə çəkilmişdir. Audiovizual təsvirdə general-leytenant Ziya Yusifzadənin ümummilli lider haqqında çıxışı film boyu davam etmişdir. Onun ali çekist təhsilindən, əks-kəşfiyyat şöbəsinin rəisi seçilməsindən, Dövlət Təhlükəsizlik Komitəsi Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsindən, peşəkar kadrlar yetişdirməsindən, öz işinə məsuliyyətli və ciddi yanaşmasından danışması Heydər Əliyevin iş potensialının yüksək göstərici kimi qiymətləndirilir. Sənədli filmdə sovet dövrünün tələbəsi Bağır Ağayevin çıxışı da yer almışdır. Onun siyasi xadim barədə dedikləri müsbət fikirlər rəhbəri izləyici gözündə daha da ucaltmışdır. Sənədli ekranda yazıçı Anarın maraqlı məlumatları verilmişdir. Azərbaycanda dissidentlərə qarşı müqavimətin qarşısının Heydər Əliyev tərəfindən alınması, kino, teatr, ədəbiyyat sahələrində sənətkarların işinin dəyərləndirilməsi siyasi xadimin şəxsiyyətə hörmət keyfiyyətlərini üzə çıxarır.

**"Birinci"** sənədli filmdə Heydər Əliyevin xalqına göstərdiyi böyük xidmət əsas məzmunu təşkil edir. Filmdə rejissor Qriqori Qurviç çıxışında atası deputat Yefim Qriqori Qurviçlə Ulu öndərlə birgə iş əməkdaşlığından bəhs etmişdir. Onun müxtəlif zamanlarda respublikanın bir çox rəhbərlər ilə işləməsi, lakin Heydər Əliyev kimi bir şəxsiyyətlə çalışmaq həvəsinin oyanması gələcək günlərin zəngin çalarlarla rəngə boyayacağından xəbər verir. Qriqori Qurviç Heydər Əliyevin liderliyini məqbul hesab etməsi ölkənin etibarlı əllərdə olduğuna ifadə edir. Rus politoloqu Georgi Arbatovun Heydər Əliyev barədə dedikləri dahi şəxsiyyətin peşəkar

siyasi gücünü dəyərləndirmişdir. Onunla görüş Georgi Arbatovda xoş hislər oyadır. Pilotçu Anatoli Konstantinovun çıxışında siyasi xadimin vəzifəli şəxslərin işə məsuliyyətsiz yanaşmaqlarına görə işdən azad edilməsində insanların ona dəstək olması onun reallıq atribut tərəfdarlığını üzə çıxarır. Sənədli əsərdə general-polkovnik Aleksandr Kovtunovun Heydər Əliyevin kütləvi informasiya vasitələrində bəyəndiyi çıxışlarını izləyicilərlə bölüşməsi, Ulu öndərin zəngin dünyagörüşə malik xüsusiyyətlərini ortaya qoyur. Çalışdığı dövrdə zavodların tikilməsində Heydər Əliyevin müstəsna xidmət göstərməsi quruculuq avadanlıqların insanların xeyrinə olacağından xəbər verir. Siyasi xadimin ölkənin vəziyyətinin yaxşı olacağı qənaətinə gəlməsi vətənpərvərlik nümunəsinin göstəricisi kimi düşünülür. Hərbçilərə maraq göstərməsi, komandir təlimlərində iştirak etməsi, yığıncaqlarda rəhbər toplusu önündə məsələlər irəli sürməsi, işgüzarlıq fəaliyyəti barədə danışıqlar aparması ekran sənətində izləyiciləri iş missiyasına ciddi yanaşmanın faktoru ilə məlumatlandırır.

Filmdə tribuna önündə siyasi xadimin sənaye, kənd təsərrüfatı produktlarının istehsalının 5 il ərzində çoxalması haqqında dediyi sözlər iqtisadi sistemin inkişafının yekunu kimi vurğulanır. Sənədli filmdə Heydər Əliyevin tikinti işlərini xüsusi qiymətləndirməsi də öz əksini tapmışdır. Ümumilli liderin inşaat işlərinə xüsusi diqqəti və tələbkarlığı ilə seçilməsi, mənzillərin çoxaldılması, yaşıllıqla əhatələnməsi, uca binaların avropa stilində qurulması sahəsində göstərdiyi xidmət xalqın komfortlu yaşaması üçün çalışması istəyindən irəli gəlir. Neft sahəsi üzrə mütəxəssis Nikolay Baybakovun öz çıxışında 1969-cu ildə Heydər Əliyevin respublikanın inkişafına misilsiz töhfə verməsini vurğulaması 1982-ci ilə qədər geniş formada xalq təsərrüfatının və iqtisadiyyatın inkişafında rəhbərliyə inamının gerçəkləşəcəyinə yönəlir. Ekran yaradıcılığında "Azərneftyanacaq" İstehsalat Birliyinin baş müdiri Zakir Seyidov Ulu öndərin neft sahəsindəki xidmətindən, rolundan danışmışdır. 1976-cı ildə ilk dəfə olaraq ölkədə tayı bərabəri olmayan 6 milyon ton neft emal edən qurğunun istifadəyə verilməsi Heydər Əliyevin əməyinin yüksək göstərici olduğu hesab edilir. Sənədli ekran əsərində Azərbaycan Respublikasının Diaspor iş üzrə sabiq sədri Nazim İbrahimovun Heydər Əliyev barədə fikirləri verilmişdir. 1970-71-ci illər ərzində Nəsimi rayonunun yaranması, bir neçə zavod və fabrikin həmin rayona keçməsi, bundan başqa onun göstərişi ilə Yasamal rayonunda iri tikinti işlərinin başlanması, rayon əhalisinin işlə təmin olunması, nəqliyyat məsələlərin həll edilməsində göstərdiyi kömək dövlətin gələcəyi xeyrinə cavabdehlik kimi dəyərləndirilir. Bakı metropoliteninin keçmiş sədri Şaiq Əfəndiyevin şərhi filmə başqa bir məna əlavə edir. Heydər Əliyevin rəhbərliyi altında çətinliklə başa gələn dahi Nizami metrostansiyasının salınması insanlar üçün rahat və komfort şəraitin yaradılması kimi nəzərdə tutulur.

Audiovizual təsvirdə diplomat Aleksandr Dzasoxovun nitqi verilmişdir. O, öz müsahibəsində sovet orqanlarında çalışdığı zaman Heydər Əliyevin bir çox böyük beynəlxalq forumlar keçirilməsində, yeni sənaye sahələrinin, elm, təhsil ocaqlarının istifadəsində, bir sıra önəmli məsələlərin həllində gördüyü tədbirlər, respublikanın gələcəyi üçün öz missiyasını ləyaqətlə yerinə yetirdiyi fikrini izləyiciyə çatdırır. Dahi şəxsiyyətin partiya, sovet komitəsinin həyatında formalizmin, bürokratizmin qüsur saydığını vurğulaması və həmin cəmiyyətə qarşı hamını mübarizəyə səsləməsi xalqın arxasında dayanmaq məqsədi daşıdığına inam yaradır. Alim Səlahəddin Xəlilovun çıxışında şərq və türk fəlsəfə üzrə tələbə elmi dərnəkləri yaradılmasında etdiyi addımlara görə cəzalandırılması və Dövlət Təhlükəsizliyi Orqanından Heydər Əliyev tərəfindən köməkliyi ilə azad edilməsi onun insanpərvərlik və humanizminin nəticəsi kimi dəyərləndirilir.

Sənədli filmdə Heydər Əliyevin Bakıdakı xidmətləri ilə əlaqədar tədbirlər canlandırılmışdır. Bu ekran əsərinə Rəşid Behbudova aid olan "Bakı haqqında mahnı"nın əlavə edilməsi filmə müəyyən rəngli çalar qatmışdır. Rəssam Vidadi Nərimanbəyovun sözlərində mədəniyyətlə bağlı tədbirdə Ulu öndərin də iştirak etməsi sənət incilərinə dəyəri kimi nəzərdə tutulur. Tədbirdə rəssamın Heydər Əliyev qarşısında sərbəst nitqi, bəzən bu çıxışın söhbətlə əvəzlənməsi Vidadi Nərimanbəyovun siyasi xadimlə səmimi bağlılığını izləyicilərə çatdırır.

Ekran yaradıcılığında heykəltəraş Ömər Eldarovla Heydər Əliyev arasında ünsiyyətin təbii alınması, siyasi xadimin bir sıra ölkələrdən

gələn tanınmış rəssamları qarşılamaq fürsətini əldən verməməsi dahi şəxsin sənəti xüsusi qiymətləndirməsi mənasını ifadə edir. Yazıçı Anarın şərhində sovet dövründə Heydər Əliyevin Azərbaycan mədəniyyətində tanınmış ədəbiyyat və musiqi sahəsində 8 nəfərə "Sosialist əməyi qəhrəmanı" fəxri adını verməsi onun sənətkara hörməti kimi qiymətləndirilir.

Bəstəkar Arif Məlikovun çıxışında Ulu öndərin onun müəllimini filarmoniyadan Fəxri xiyabana qədər çiynində daşıması onun müəllimə hörmət hissini vurğulayır. Filmdə idmançılar öz xatirələrini tamaşaçılarla bölüşmüşlər. Siyasi xadimin ölkəni idarə etdiyi dövrdə onların Heydər Əliyevin qəbulunda olması, bəzi məsələlərdə problemləri ilə maraqlanması, oyunçuları qələbəyə ruhlandırması, mənzil verməsi barədə deyilənlər dahi şəxsin idmançılara, idman növlərinə olan sevgisini filmdə əks etdirir. Növbəti kadrda mühafizə rəisi Usman Cəfərovun söhbətində onun ömrünün çox illərini Heydər Əliyevin yanında işləməsi, onu heç bir rəhbərdən ayırmaması, Ulu öndərin qeyri-adi bir şəxsiyyət olduğu fikri izləyicilərin diqqətinə çatdırılır. Rus müğənnisi Lyudmila Zıkinanın dahi şəxsi genişmiqyaslı lider, alicənab insan adlandırması ilə bağlı dediyi sözlər Heydər Əliyevin daxili aləminin zənginliyindən xəbər verir. Sənədli filmin son epizodunda general Aleksandr Kovtunovun Heydər Əliyevin Azərbaycan xalqının güclü lideri olması fikrini nəzərə çatdırması görkəmli şəxsin rəhbər funksiyasının əhəmiyyətini bir daha ifadə edir.

**"Moskva-Kreml"** sənədli ekran əsərində Heydər Əliyevin sovet dövründə apardığı rəhbərlik islahatlardan söhbət açılır. Filmin ilk epizodunda jurnalist Artyom Borovikin siyasi xadim barədə çıxışı izləyicilərə təqdim olunur. Jurnaistin öz çıxışında dahi insanın respublikanın, xalqının dayağı olduğunu, bu cür keyfiyyətlərin Allahın alın yazısı olduğunu, həm qismətin, həm də insanın gerçək arzusuna çatması kimi nəzərdə tutur. Onu iri postsovet sahəsində ucalmış qayaya oxşatmasında, siyasi istedadına vurğun qalmasında Heydər Əliyevin geniş dünyagörüşlü çevik xadim potensiallığındakı davranışın tipik xüsusiyyətləri duyulur. Andropov tərəfindən Moskvada yüksək dövlət vəzifəsinə təyin olunması Heydər Əliyevin məsuliyyətli rəhbər fəaliyyətinin bariz nümunəsidir. Qorbaçovun etdiyi islahatların əvvəlini Ulu öndərin qoyması onun işlərinin qaydasında aparıldığına işarə edir. Heydər Əliyevə Moskvada imkan yaradılmaması düşmənləri tərəfindən əngəl törədilməsi kimi başa düşülür. Artyom Borovikin dövlət idarə orqanlarının başına Əliyevin gəlməyini istəməsi, rus xalqının gələcəyinin fərqli olacağına inam uğurlu nəticələr əldə ediləcəyi mənanı bildirir. Siyasi xadimi rəhbərlikdən uzaqlaşdıranda oğlu İlham Əliyevə qarşı çox ədalətsiz kompaniya başlanılması, müəllim vəzifəsindən azad edilməsi təkcə Ulu öndərə deyil, ailəyə qarşı edilən zor tətbiqi hesab edilir. Ailəni İlham Əliyevin saxlaması, atası ilə bərabər çox əziyyətlərdən keçməsi taleyin çətin sınaqlarına səbirlə dözmək məqamını ortaya çıxarır.

Sənədli filmin digər epizodunda Rusiya dövlət xadimi, diplomat Aleksandr Dzasoxovun dahi şəxs haqqında fikirləri yer tutmuşdur. Heydər Əliyevin dövlətin əsas rəhbər vəzifəsinə məqsədəuyğun görülməsi, işinin öhdəsindən lazımi qaydada gəlməsi gerçəkliyi özünü doğruldur. Aleksandr Dzasoxovun Asiya və Afrika ölkələrində işlədiyi zamanda siyasi fəaliyyətinin yaddaqalan hissəsinin Heydər Əliyevlə ölkənin gələcəyi üçün müzakirə apardığı görüşlə bağlı xatirələri ona olan təmiz qəlbdən doğan münasibətdən qaynaqlanır. Əliyevə qarşı ədalətsiz davranmaları, Siyasi Büronun rəhbərliyindən kənarlaşdırmaları və birinci katiblikdən çıxması haqqında danışılanlar onun hakimiyyətinin sonunu bildirir. Ekran yaradıcılığında Zərifə xanımı son mənzilə yola salmasında Heydər Əliyevin həyat yolunda yarımçıq qalmış böyük sevgisinin, acı taleyin mürəkkəb sınaqlarının ağır şifrəsi duyulur. Audiovizual təsvirdə neftçi alim Nikolay Baybakovun çıxışı verilmişdir. Siyasi xadimin Baykal-Amur yolunun salınmasında göstərdiyi böyük xidmət ümumilli liderin respublikanın gələcəyi üçün imkanlarını əsirgəmədiyini göstərir. Filmə daxil olan dövlət xadimi Andrey Loqinovun nitqində Ulu öndərlə 80-ci illərdə zəhmətkeş insanlarla görüşməsi, xatirələri, təəssüratlarından təəccüblənməsi, onlardan tənqid eşitməməsi Heydər Əliyevin dərin və geniş diapazonlu daxili dünyasının zənginliyindən irəli gəlir. Rejissor Qriqori Qurviçin sözlərində sovet hakimiyyətinin Qarik Kasparovu dünya çempionu olmağa icazə verməməsi, Heydər Əliyevin israrı ilə onun oyuna daxil ol-

ması və qələbə qazanması professional oyunçuya böyük qiymət verdiyini bildirir. Musiqişünas Fərhad Bədəlbəylinin dahi şəxs haqqında informasiyası filmə əlavə edilmişdir. Moskvadakı konsertində dirijor Veronika Dudarovanın başçılığı ilə simfonik orkestrlə birlikdə çıxışında büro üzvləri və Heydər Əliyevin də iştirakından həyəcanlanması, lakin siyasi xadimin ona və həmvətənlərinə mənəvi dəstək olması sənətkara, sənətə verilən yüksək dəyər hesab edilir.

Sənədli ekranda siyasətçi Aleksandr Yakovlevin söhbəti verilmişdir. Onun xatirində Heydər Əliyevin xarakterində olan əlamətlərdən: qətiyyətli, mərd, sözübütöv və sözünün arxasında dayanan xüsusiyyətlər öz əksini tapır. Ümumilli liderin gözü götürməyən insanların ətrafında olmasını istəməməsi ikiüzlü xain tərəfdaşların iç üzünü aşkara çıxarır. Cəmiyyəti yaxşılaşdırmaq üçün korrupsiyadan azad olunmaq təklifini irəli sürərək bürokratik aparatın üç dəfə dəyişməsini gərəkli hesab etməsi xalqı iyrənc bəladan qurtarmaq fikrinə yönəlir. Onun bu təklifinin korrupsiya ilə mübarizədə böyük rol oynayacağı görünür. Jurnalist Mixail Poltoranin sözlərində Qorbaçovun Əliyevi güclü oyunçular kimi eyni səviyyədə tutması və ondan qorxması, həmin insanları kökündən məhv etməsi gələcək üçün yerini möhkəmlətmək funksiyası daşıyır. Sənədli filmdə teleaparıcı Andrey Karaulovun Əliyevin minlərlə insanın qarşısında XX əsrin ən güclü şəxslərindən biri adlandırması ölkənin rəhbərliyinə etimadının inamını bildirir. Qorbaçovun köməkçisi Anatoli Çernyayevin kitabında Ulu öndərə qarşı cinayət işinin yazması onu vəzifədən kənarlaşdırmaq arzusunun əsası kimi başa düşülür. 90-cı ilin hadisələrində Heydər Əliyevin Qorbaçovu Azərbaycan xalqına qarşı təcavüzdə günahlandırması, kütləvi informasiya nümayəndələri önündə çıxış etməsi onun cəsarət və mübarizliyini üzə çıxarır. Filmin sonlarına doğru təkrar jurnalist Artyom Borovikin nitqi tamaşaçılara təqdim edilir. Heydər Əliyevə bir sualla müraciət edilir. Onun “Nə vaxtsa Azərbaycana qayıdıb ölkəyə başçılıq edəcəksiz? sualında “yuxuda görə bildiyini”ni verdiyi cavab ümidsizliyə qapılmaq hissləri oyadır. Lakin bir neçə il sonra ümumilli liderin Azərbaycana rəhbərlik edərək gələcək günlərin yüksəlişinə imza atması ilə Allahın möcüzəsinə inam nəzərdə tutulur.

**“Lider”** çoxseriyalı sənədli filmdə Ulu öndərin Azərbaycan xalqının ağır vəziyyətində birlikdə olmasından danışılır. Vizual təsvirdə Heydər Əliyev barədə bir neçə şəxsin: Rəşid Həsənov, Arif Rəhimzadə, Andrey Karaulov, Rza İbadov, Rəfael Allahverdiyevin şərhi verilmişdir. Onların çıxışlarında siyasi xadimin Azərbaycana lider kimi dönməsi filmdə diqqətə çatdırılır. Filmin ilkin gedişatında Andrey Karaulovun Heydər Əliyev barədə söylədiyi sözlər seyrçilərin ünvanına ötürülür. Heydər Əliyevin Bakıya qayıtmaq qərarının bir çoxlarını narahat etməsi, ona qarşı maneəçilik yaradılması, Azərnəşrin direktoru Ulu öndərin dostu Əjdər Xanbabayevi öz avtomobilində öldürülməsi hadisəsi, lakin bütün bunların Heydər Əliyevin iradəsini qıra bilməməsi, maneələri aşaraq Bakıya gəlməsi onun mənəvi qüvvəsinin rəmzi kimi dərk edilir əsl xarakterini üzə çıxarır. Filmdə Rəfael Allahverdiyev çıxışında siyasi xadimin Bakıya gəlməsində əngəl törədən əsas faktlardan bəsh edir. O, çıxışında deputatın aeroportun önündə bir qrup insanları toplaması, həmin insanların mitinqdə əllərində plakatla “Heydər Əliyevi qoymayacağıq, Heydər Əliyev ayağını basmasın.” deyərək meydanda adamların onu qəbul etməməsi gerçək faktını izləyicilərə təqdim edir. Buna görə mürəkkəb bir yol vasitəsilə Heydər Əliyevin Naxçıvana həmişəlik olmayan dönüşü yenidən tamamlanmamış işlərin düzələcəyindən xəbər verir. Sənədli filmdə Rəşid Həsənovun çıxışında ümumilli liderin təkcə deputat kimi deyil, Azərbaycan Respublikasının vətəndaşı olaraq Dağlıq Qarabağda durumun çətinliyinin onu narahat etməsi, həmin problemin həlli üçün səhərə qədər yatmayaraq qətnamə hazırlayıb Azərbaycan Parlamentinə göndərməsi, Heydər Əliyevin xalqın problemində rolunun həlledici dönüşün rəmzinə çevrildiyi aydın olur. Siyasi xadimin ölkənin başçısı kimi təyin edilməsi gələcəyin uğurlu olacağını göstərir. Onun Naxçıvanda döyüşlərdə şəhid olan, əsir düşən əsgərlərin geri verilməsində var gücü ilə çalışması, yaralıları Türkiyəyə müalicəyə göndərib onları yoxlaması ilə vətənini, dövlətini xalqını sevən rəhbər funksiyası özünü doğruldur. Türkiyənin dəstəyi ilə Ulu öndərlə Süleyman Dəmirəlin “Həsrət” körpüsünün açılış mərasimində birgə iştirakı barədə deyilənlərdə hər iki türk dövlətinin birlik, dostluq, qardaşlıq, kontekstinin məna çaları öz əksini tapır. Heydər Əliyevin həyatının ağır və şərəfli dövrü, Naxçı-

vanda gördüyü işlər sənədli filmin bədii inikasını gücləndirir. Bill Klintonun ABŞ prezidenti seçilən zaman ümumilli liderin təbrik məktubu göndərməsi və oraya qısa cümlə ilə "Naxçıvan bulokadadır, kömək lazımdır" xahiş etməsi, alınan cavabda marşrut xəttinin İrəvandan keçib Naxçıvana aparılmasını bildirməsi, Heydər Əliyevin bununla razılaşmayıb istiqamətin Ərzurumdan bilavasitə Naxçıvana dava-dərman gətirilməsinə icazə verməsi, sənədli ekranda Ulu öndərin bu missiyasını layiqli həyata keçirməsi nəticəsində auditoriya kütləsinin gözündə düşmənin önündə baş əyməyən mənəvi gücün himayəsində qüvvətli bir komandanlıq dinamikası yaranır.

Rza İbadovun Ulu öndər barədə söylədikləri kadrın məzmununa əlavə edilərək ekran təsvirində tamaşaçıların diqqətinə çatdırılır. Naxçıvan Muxtar Respublikası adından sovet sözünün ləğv edilməsində, Azərbaycanın üçrəngli bayrağının ucalmasında siyasi xadimin əvəzsiz rolu onu simvolik obraz səviyyəsinə ucaldır. Naxçıvana qarşı basqınların olması, vuruşun orada baş tutması, parlament seçkilərinin keçirilməsi və əhalinin Heydər Əliyevi görməsi ekran dilində ümumilli liderin qəhrəmanlıq yekununun dominantlığı kimi nəzərdə tutulur. 1992-ci ildə Türkiyə prezidenti və naziri ilə görüşməsi, Naxçıvanla bağlı əlaqələrdə Qars müqaviləsinin sənədləşməsi seyrçi təsəvvüründə Heydər Əliyevə millətin gələcək rifahı üçün əsl liderlik xüsusiyyətini qazandırır. Vizual təsvirdə digər çıxışçılardan Arif Rəhimzadənin də Heydər Əliyev barəsində dedikləri sözlər ifadəli ekran ştrixləri ilə verilmişdir. Onun ölkədə vətəndaş müharibəsi başlayaraq silahlı dəstələrin hərəkət göstərməsi və bu vəziyyətdə güman yerinin Heydər Əliyevin hakimiyyətə gəlişinin vacibliyini fikirləşməsi izləyici təfəkküründə yeni qat yaradır. Siyasi xadimin cəsur, cürətli, möhkəm iradəsi, xalqın xilaskarı kimi tamaşaçılara nümayiş edilməsi vizual təsvirdə yeni məzmun yaradır. Filmdə Heydər Əliyevin həyəcan dolu çıxışları nəzərdən qaçmır. Onun Azərbaycan xalqının çətin günlərini düşünərək olaylara münasibət bildirməsi, tribuna önündə coşqun nitqi filmin quruluşuna müəyyən ölçüdə yetərli qədər material verir.

**"Tale"** adlı sənədli bölümdə Heydər Əliyevin yaşadığı kədər dolu həyat hekayəsinin çətin anlarından söhbət açılır. Filmin giriş epizodunun Ulu öndərin ictimai, siyasi aktivliyinin ekran təsviri ilə başlaması izləyicidə xoş təəssürat oyadır. Vizual görüntüdə dahi şəxsiyyətin kürsüdə əyləşib keçmiş xatirələrini xatırlaması filmin sferasında reallığı xarakterizə edir. Heydər Əliyevin çıxışında 1987-ci ildə siyasi büronun üzvülüyündən, birinci müavin vəzifəsindən istefa verməsi onun Mixail Qorbaçov tərəfindən əsassız tənqidlərə məruz qalması və ömrünün ən çətin dövrünü yaşaması siyasi xadimin psixologiyasını, iradəsini, yüksək əxlaqı keyfiyyətlərini izləyicilərə çatdırır. 1990-cı illərdə Azərbaycan Respublikasına qarşı törədilən hərbi təcavüzdə rus qoşun hissələrinin Bakıya yeridilməsinə, günahsız insanların öldürməsinə etiraz edən ümummilli liderin mitinqdə çıxış edib Mixail Qorbaçovu təqsirləndirməsi onu Azərbaycanın qeyrətli vətənpərvər oğlu səviyyəsinə qaldırır. Ekran yaradıcılığında Heydər Əliyevin doğma yurda qayıtmaq qərarı verməsi, Ulu öndərin bir zamanlar önə çəkdiyi, indi isə onun Azərbaycana gəlməsinə maneə yaradanların və dahi şəxsə ancaq vəzifə üçün yaxınlaşan insanların qeyri-səmimi siması açılır.

Sənədli filmdə Naxçıvan əhalisi tərəfindən onun xoş qarşılanması, namizədliyinin irəli sürülərək deputat seçilməsi xalqın probleminin həlli kimi başa düşülür. Azərbaycana qarşı haqsızlığı görməsi, bunu qəbul etməməsi, Əliyevin çıxışından bəzi nümayəndələrin onlara zərər verəcəyindən qorxması, həmin səbəbdən Ulu öndərin Moskvaya göndərilməsi fikrinin paylaşılması hadisələrin prizmasında gerçəklik fakturasını dolğunlaşdırır. Audiovizual təsvirdə Heydər Əliyevin nitqindəki həyəcanlı səs tempi tamaşaçıların diqqətindən yayınmır. Tribuna önündə kobud, səviyyəsiz deputatlar tərəfindən çığırtılara məruz qalması və Heydər Əliyevin çəkinmədən çıxışını davam etdirməsi xalqın xilaskarı qəhrəmanı kimi sənədli filmə yeni bir məna verir. Filmin süjet xəttinə daxil olan İlham Əliyevin Heydər Əliyev barəsində dedikləri ekran məhsulunun təbəqəsini dəyişir. Atasının ürək tutmasından xeyli müddət xəstəxanada qalması, ailəsinin gərgin dövr yaşaması, sovet ittifaqının bu vəziyyətdən istifadə edərək siyasi xadimi məcburi istefaya göndərməsi və 1990-cı illərə qədər Heydər Əliyevin dövlət vəzifəsində çalışmaması barədə söhbət reallıq faktını üzə çıxarır. Ümumilli liderin ətraflı çıxışı səbəbin-

dən onun və ailə üzvlərinin təzyiq altında olması, işdən azad edilməsi ziddiyyətli maneranın təsiri seyrçilərə təqdim edilir. 1982-1990-cı illərdə İlham Əliyevin Moskvada müəllim kimi çalışaraq yanvar faciəsindən sonra tədrislə məşğul ola bilməməsi, 6 ay müddətində işsiz qalması, müəssisələrə müraciət edərək Ulu öndərin oğlu olduğu üçün işə qəbul edilməməsi seyrçidə təəssüf hissi yaradır. Sənədli filmin gedişatında Heydər Əliyevin Bakıya gəlişinin rəhbərlikdə narahatlıq yaratması və müəyyən vasitələrlə gəlişinin qarşısının alınması ilə onu bu siyasətdən kənarlaşdırmaq prinsipinin mürəkkəb şifrəsi açılır.

Sessiyada çıxış edənlərin bir zamanlar siyasi xadimin başçılığı altında işləməsi, onları irəliyə çəkməsi, sonra isə onların Heydər Əliyevə sədaqətsizlik göstərməsini vurğulayan İlham Əliyev saxta, yaltaq adamların gücsüz rolunu obyektiv ölçülərlə filmin auditoriya kütləsinə çatdırır. Sənədli vizual əsərdə Heydər Əliyevin qardaşı Cəlal Əliyev olmuş hadisələr haqqında fikirlərini tamaşaçılarla bölüşmüşdür. Hörmətli bir nəfərin Cəlal Əliyevə zəng vurub onunla görüşməsi, Heydər Əliyevin buraya gələrkən öldürüləcəyini xəbər verməsi, bu məlumatın Əjdər Xanbabayevə çatdırılması və onun qətlə yetirilməsi ekran yaradıcılığında Ulu öndərin hakimiyyət başına gəlmək yolunun qarşısını almaq məhdudiyyətini göstərir.

**"Əsl məhəbbət haqqında"**sənədli filmdə Heydər Əliyevin həyat yoldaşı oftalmoloq, alim Zərifə Əliyevanın tale yolundan, sevgisindən, ailə həyatından bəhs edilir. Qardaşı Həsən Əliyevin israrı ilə Kislovodskidə istirahətdə olarkən orada qızla tanışlığı və onun barəsində informasiya toplaması ekran işində obrazın daxili hisslərini əks etdirir. 1950-ci ildə Bakıda işləyərkən ailəsinin siyasi xadimə ailə həyatı qurmasını məsləhət verməsi Heydər Əliyevin hisslərinin yalnız Zərifə Əliyevaya bağlılığı seyrçi qavrayışında saf duyğulara hörmət hissi yaradır. Filmdə Zərifə Əliyevanın atası Əziz Əliyevin işdən çıxarılması, onun bu səbəbdən Heydər Əliyevin də işinə mənfi təsir olacağını deməsi və ümumilli liderin bununla razılaşmaması barədəki fikirləri siyasi xadimin qorxmaz xarakterini və öz sevgisinə sonsuzadək sadiq qalacağı anlayışını ortaya çıxarır. Nazir Emelyanovun Ulu öndərə Zərifə Əliyeva ilə əlaqəsini kəsməsini bildirməsi, əks təqdirdə onun işinə zərər dəyəcəyini xəbər verməsi Heydər Əliyevə absurd görünür. Onun cavabında gerçək hisslərin ifadəsi ümumilli lideri simvolik sevgi qəhrəmanı kimi ucaldır. Siyasi dəyişiklik, Stalinin ölümü, Mir Cəfər Bağırovun işdən azad olunması və Emelyanova həbs cəzası verilməsi, iki gəncin sevgisində qələbə qazanması filmin obrazlılığını artırır.1954-cü ildə onların ailə qurması, Sevil və İlhamın dünyaya gəlməsi ailə səadətinin nəticəsi kimi başa düşülür. Zərifə Əliyevanın vaxtsız itkisi Heydər Əliyevin qəlbində dərin bir iz buraxır. Sənədli filmdə əsas süjet xətti və Vaqif Mustafayevin izləyiciyə çatdırdığı vizual təsvir gözdən qaçmır. Hər iki obrazın görüş səhnəsi filmə təbii görünüş effekti təsiri bağışlayır. Bu epizodda aktyorlar rolun missiyasını ustalıqla oynamışlar. Bu da estetik gözəllik yaradaraq filmə rəngli çalar qatmışdır.

**"Bir həsədin tarixi"** sənədli ekran yaradıcılığında Mixail Qorbaçovun hakimiyyəti dövründə baş vermiş tarixi hadisələr haqqında məlumatlar əks olunur. Heydər Əliyevin dediyi sözlər həyatda yaşadığı gerçəkliyi əks etdirir. Mürəkkəb şəraitdə məsuliyyətli vəzifələrdə çalışması, işində dürüst, vicdanlı olması, buna görə də hər zaman seçilməsi və dəstəklənməsi haqqında dediyi sözlər onu həmişə diqqət mərkəzində olan fərqli obraz səviyyəsinə ucaldır. Heydər Əliyevin 1970-ci ilin əvvələrində Sovet Azərbaycanın 50 illik yubileyində bir çox nümayəndə heyətinin və müxtəlif ölkələrdən siyasi büronun üzvləri ilə birlikdə Bakıda Qorbaçovla ilk dəfə qiyabi tanışlığı  adi qonaqlar içində tanışlıq kimi qiymətləndirməsi onların arasında heç bir yaxın əlaqənin olmadığı fikrini ifadə edir. Heydər Əliyevin 1972-ci ildə sanatoriyada istirahətdə olarkən Qorbaçovun zəng edib maraqlanması, oraya gələrək yaxın münasibətlərin, dostluqların əsasının qoyulmasının başlanğıc mərhələsi kimi nəzərə alınır. Qorbaçovun katib vəzifəsinə təyin edilərkən onun haqqında müsbət rəy bildirməsi, işin öhdəsindən layiqincə gələcəyinə əminlik hissini ifadə edir. Sənədli filmdə siyasi büroda ümumilli liderə Moskvada yüksək vəzifədə işləmək təklifinin verilməsi, lakin Heydər Əliyevin bu təklifi qəbul etməyib Bakıda qalmağı məqsədəuyğun görməsi onun vətənə bağlılığından, xalqının azad gələcəyi üçün çalışmaq arzusundan irəli gəlir. Andropovun əmri ilə DTK-nın sədri təyin edilməsi, bir müddət onun himayəsi

altında çalışması etibarını qazanmaq və rəhbərlik fəaliyyətində aparılan islahatlardan məlumatlı olacağına inam yaradır. Ulu öndərin Andropova Qorbaçov barədə etiraz doğurmayan fikir bildirməsi ona olan güvənindən irəli gəlir. Hakimiyyət uğrunda aparılan mübarizədə Qorbaçovun da cəhd etməsi onun vəzifəyə böyük marağının olduğunu göstərir. Xaricdə Ulu öndərin soyadının verilməsi, siyasi xadimin öz namizədliyini irəli sürməməsi dahi şəxsin yüksək vəzifələrə can atmadığı anlamına gəlir. Nikolay Tixonovun siyasi büroda apardığı ciddi müzakirədə Çernenkodan sonra Heydər Əliyevi istəməsi gələcək işlərin qaydasında olacağına etibarlılıq hissi doğurur.

Siyasi büronun üzvlərinin çoxunun slavyan əsilli olması Moskvada tək azərbaycanlı müsəlman Heydər Əliyevin seçilməsi problem yaranacağına əsaslı işarə edir. Filmdə Qorbaçov Baş katib olduğu zaman onun qəfildən dəyişməsi, ikili əlaqənin soyuması onun vəzifə sevən ad-san aludəçi meylinə düşməsini göstərir. Filmdə həkimlərin ümumilli liderin sağlamlığında problemin olması ilə bağlı çətin işi görməməyi məsləhət bilmələri, Heydər Əliyevin buna görə onlara əsəbləşməsi, öz vəzifələrini düzgün yerinə yetirə bilmədiklərini deməsi və siyasi xadimin narazıçılıq iradı öz əksini tapır. Qorbaçovun göstərişinə əsasən işin bu cür təşkil edilməsi onun qorxu hissindən irəli gəlir. Mərhum Kosıginin vəzifəsindən uzaqlaşdırılmasında həkimlərin eyni sözü ona da deməsi Heydər Əliyevin də başına gələn hadisələrin təkrarlandığı, bir ssenari xətt üzrə planlaşdırıldığı qənaətinə gəlinir. Siyasi büro üzvlüyündən, sovet ittifaqı rəhbərliyindən Ulu öndərin kənarlaşdırılması Qorbaçovun paxıllıq əməllərinin kiçik parçası olduğuna şübhə yaratmır.

Ekran təsvirində Qarabağ haqqında Heydər Əliyevin fikirləri yer tapmışdır. Qorbaçovun milli məsələləri fərqləndirməsi, qeyri-slavyan işçiləri istəməməsi, ermənilərlə təmas yaratması müsəlman xalqına sayqısızlığı özünü büruzə verir. Heydər Əliyev Moskvada işlərdən kənarlaşdırıldıqdan sonra Dağlıq Qarabağ və Azərbaycanla əlaqədar ədalətsiz siyasətə qarşı mitinqlərin keçirilməsi, durumun qeyri-sabitliyi, düşmənin respublikanın gücsüzlüyündən istifadə edib basqı göstərməsi məsələsini qarşıya qoyur. Qorbaçovun bu toqquşmanın qarşısını almaması, davam etməsinə çalışması, Azərbaycanı sıxışdıraraq oraya qoşun yeritməsi günahsız insanların öldürülməsinə səbəb olması ölkənin məhv edilməsi kimi başa düşülür. Heydər Əliyevin yanvarın 20-si Azərbaycana ordu göndərilməsindən xəbərdar olması, silahsız, əliyalın insanların nümayişə çıxdıqlarından narahat olması, bu cür vəziyyətdə əlindən gələn hər cür köməklik göstərməsi xalqı yolunda özünü fəda etməsi onun vətənpərvərlik missiyasını layiqincə yerinə yetirildiyini göstərir. Bu hadisələrin günahkarı kimi Qorbaçovun dönük, satqın, cinayətkar siması üzə çıxır. Yenidənqurma ilə əlaqəli planın baş tutmaması, siyasi xadimə qarşı təxribatların müvəffəqiyyətsizliyi böhtançı insanların iç üzünü açıb göstərir.

Sənədli filmin növbəti kadrında Mixail Qorbaçovun Ulu öndər haqqında çıxışı verilmişdir. Tanışlığının ilk dövrünü 1970-ci ildə L.İ.Brejnevin Bakıya səfərində görüşün baş verməsi məqamını tamaşaçılarla paylaşır. Ümumilli liderin ailəsi, şəxsiyyətli, ziyalı həkim xanımı ilə tanış olması, dahi şəxslə Qorbaçovun aqrar işi idarə etdiyi zamandan aralarında səmimi münasibətin yaranması Heydər Əliyevin qəlbinin təmizliyindən və saflığından xəbər verir. Andropovun Qorbaçovla danışığı, Brejnevin siyasi xadimi Moskvaya vəzifəyə gətirmək istəyində olması ona olan etibarını və idarəçilik işlərini düzgün yerinə yetirəcəyi fikrini diqqətə çatdırır. Brejnevin vəfatından sonra iclasda Andropovun birinci katib seçilməsi və həmçinin siyasi xadimin də Moskvaya köçürülməsi məsələsinin danışılması yeni seçilmiş başçının Heydər Əliyevlə birgə işləmək niyyətində olduğu bildirilir. Qorbaçovun ümumilli liderin ölkəni idarə edə bilən bacarıqlı rəhbər funksiyasının əsasında yüksək siyasi səviyyənin olduğunu söyləməsi Ulu öndərin çox geniş dünyagörüşlü və güclü siyasi xadim xüsusiyyətini aşkara çıxarır. Heydər Əliyevin baş katib olması ilə bağlı fikir mübadiləsinin edilməsi, ancaq Qorbaçovun slavyanlardan birinin olmağını istəməsi, öz millətindən tərəfdaş seçilməsini təklif etməsi vurğulanır. Onunla dostluq əlaqəsi qurması, aktiv əməkdaşlıq, xüsusi dəstək verməsi, ciddi və güvənli insan kimi təqdim etməsi Qorbaçovun ikiüzlü, riyakar üzünü aşkara çıxarır.

Sənədli filmdə Heydər Əliyevin Kremldən getməsi nə ilə əlaqədar idi? Qorbaçovun cavabında isə onun səhhətində problemin olması,

başqa variantda ölkəyə maneçilik yaratması fikrini deməsi, siyasi xadimi hamının gözündən düşürmək, gücsüz bir şəxs kimi tanıtdırmaq istəyindən irəli gəlir. Bu cür olaya qayıtmaq istəməməsi, boş söhbətlər adlandırması gerçəklikdən qaçmaq faktı kimi səciyyələnir. Deyilənlərdən təəssüf hissi keçirməsi, xəstəliyinə görə Əliyevə oyunların qurulmasının düzgün olmadığını deməsi Qorbaçovun baş vermiş hadisələrdən xəbərsiz olması və özünü müdafiə etməsi fikrinə yönəlir. Audiovizual təsvirdə nə üçün Heydər Əliyev tutduğu vəzifələrdən kənarlaşdırıldı sualı verilir. Bu sualın cavabında isə ölkəsinə yüksək təzyiqin olduğunu və bu vəziyyətdən çıxış yolunun vacibliyini deməsi Ulu öndərin respublikada qarışıq vəziyyətin dayandırılmasında önəmli rolunun əhəmiyyəti nəzərdə tutulur.

Sənədli filmdə Qorbaçov Heydər Əliyev haqqında mənfi fikrdə olmadığını, siyasi xadimin yüksək insani keyfiyyətlərə malik olduğunu tamaşaçılar önündə etiraf edir. Xronikal görüntüdə Heydər Əliyevin hansı əlamətləri sizi qane edirdi? Onun dahi şəxsin dərrakəli, hiyləgər, möhkəm, bacarıqlı insan olmasını vurğulaması Ulu öndərin geniş diapazona malik şəxsiyyətinə şübhəsiz yanaşmasıdır. 20 Yanvar hadisələrində Qorbaçov əlinin olmadığını, siyasətlə mənəviyyatı birləşdirməyə çalışdırmadığını söyləməsi ilə onun məsum simasının ikiüzlü xarakteri özünü göstərir. Ulu öndərin ölkəyə bacarıqla başçılıq etməsi, dövlətini kəskin böhrandan qurtarması Heydər Əliyevin xalqının yolunda göstərdiyi əzmkarlığının nəticəsi kimi nəzərdə tutulur. Qorbaçov ümumilli liderin çətinliklərdən qorxmamasını, mərdlik göstərməsini diqqətə çatdırmaqla Heydər Əliyevin qüvvətli qəhrəman kimi adının tarixə düşəcəyini vurğulayır.

Sənədli filmə İlham Əliyevin də o illərdə atasının başına gələn hadisələrlə əlaqəli nitqi əlavə edilmişdir. Ağır infarkt keçirməsi, gələcəklə bağlı həkimlərin xoşagəlməz proqnozlar verməyi, istefa veriməsini məsləhət görmələri, Heydər Əliyevin bu xəstəliyi qəbul etməməsi, qurma işin təşkil olduğunu düşünməsi onun vəzifədən kənarlaşdırmaq siyasətinin olmağından xəbər verir. Ümumilli liderin yığıncaqdakı çıxışında sovet rəhbərliyini, Qorbaçovu qanlı hadisəyə, günahsız azərbaycanlıların öldürülməsinə görə mühakiməsi onun xalqına dayaq olduğu fikrini seyrçiyə çatdırır. Heydər Əliyevin çıxışından sonra sovet qoşunun Bakıya göndərilməsi, ordunun günahsız insanlara hücumu və siyasi xadimin bütün ailə üzvlərinə qarşı göstərilən təzyiq, eləcə də İlham Əliyevin universitetdə gələcəyin siyasətçilərinə dərs demək vəzifəsindən azad edilməsi haqqında dedikləri faktlar Qorbaçov rejimin ədalətsizliyini göstərir. Tarixi baxımdan həmin adamların Heydər Əliyevin siyasi arenadan uzaqlaşdırılmasında aktivlik göstərməsi, indinin özündə onlardan birinin də Ulu öndərin işinə maneəçilik törətməməsi barədə dedikləri ümumilli liderin siyasi üstünlüyünün yüksəkliyinə şübhə yaratmır. Ekran yaradıcılığının sonunda Heydər Əliyevin sözlərində ona paxıllıq edənlərin çoxluq təşkil etdiyini vurğulaması, həmçinin Qorbaçovun da Ulu öndərə həsəd aparması onun haqqında deyilmiş lider, fərqli, seçilmiş şəxs anlamını özündə doğruldur.

Elmi məqalədən əsas nəticəyə gəlmək olar ki, tarixi şəxs Heydər Əliyevin kinematoqrafiya sənətinin inkişafında böyük dəstəyi tamaşaçı kütləsinə nümayiş etdirilmişdir. Ulu öndər barədə ekranlaşdırılmış sənədli əsərlər özünəməxsus dəst-xətti ilə konkret olaraq xronoloji məqamda ümumi biçimdə cəmləşərək daha yaddaqalan olaraq seyrçi qavrayışında əbədi iz salmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Kazımzadə, A.H. Heydər Əliyev və kinematoqraf / A.H.Kazımzadə. Bakı: Mütərcim, -2007, -204 s.
2. Təranə Məhərrəmova. Heydər Əliyev incəsənətin hamisi idi [Elektron resurs] /-12 dekabr, 2017. URL: https://kaspi.az › heyder-eliye
3. General (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 1999)
4. Birinci (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 1999)
5. Moskva-Kreml (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 1999)
6. Lider (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 1999)
7. Tale (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 2000)
8. Əsl məhəbbət haqqında (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 2001)
9. Bir həsədin tarixi (ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, 2002)

**Айсель Агаширин кызы РУСТАМОВА**
*Диссертант Азербайджанского Государственного Университета Культуры и Искусства*
*E-mail: aysel_rustemliar@mail.ru*

## ОТОБРАЖЕНИЕ СЛАВНОЙ ЖИЗНИ В ДОКУМЕНТАЛЬНЫХ ФИЛЬМАХ

**Резюме:** В статье показано особое внимание и необходимая поддержка Гейдара Алиева к искусству кино, как к особой отрасли национального искусства. Здесь отражен анализ многосерийных документальных фильмов об общенациональном лидере, снятых режиссером Вагифом Мустафаевым. В этих хрониках представлены трудные периоды жизненного пути великого вождя, высокий пик его трудового потенциала, реформы, проведенные вождем в широком диапазоне, заслуги, которые он оказал своему народу, значение, которое он придавал различным видам подробно рассказывалось об искусстве и художниках, о большой любви, дарованной ему судьбой, и о семейном очаге.
**Ключевые слова:** *Гейдар Алиев, Великий Вождь, Общенациональный лидер, политический деятель, аудиовизуальное описание, экранное творчество.*

**Aysel Aghashirin RUSTAMOVA**
*Dissertation student of the Azerbaijan State University of Culture and Art*
*E-mail: aysel_rustemliar@mail.ru*

## A GLİMPSE OF A GLORİOUS LİFE İN DOCUMENTARİES

**Summary:** The article deals with Heydar Aliyev’s special attention and necessary support to the art of cinema, as a special area of national art. The work reflects the analysis of serial documentaries about the national leader, filmed by director Vagif Mustafayev. In those chronicles, the difficult periods of the great leader's life path, the high peak of his work potential, the reforms carried out by the leader in a wide range, the service he rendered to his people, the value he gave to various types of art and artists, the great love bestowed on him by fate, and the family hearth were explained in detail.
**Key words:** *Heydar Aliyev, Great Leader, National leader, political leader, audiovisual description, screen creativity.*

**Daxil olub:** 24.07.2022